

# Bu səfər Azərbaycan–Rusiya əlaqələrinə öz töhfəsini verəcək

**Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına ilk rəsmi səfərinin yekunları Rusiya ilə Azərbaycan arasında münasibətlərin daim yüksəlişdə olduğunu bir daha təsdiqlədi. Səfər çərçivəsində keçirilən görüşlər, X Azərbaycan–Rusiya Regionlararası Forumunda, XTNS-də "Azərbyacan" pavilyonunun açılışı göstərdi ki, həqiqətən də, iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq, mehriban qonşuluq və səmimi dostluğun nəticəsidir. Bu rəsmi səfər çox böyük ictimai-siyasi əhəmiyyət daşıyır. Rusiyanın ali rəhbərliyi ilə keçirilən görüşlər bunun əyani sübutudur.**

**Son illər Rusiya ilə Azərbaycan arasında münasibətlər getdikcə daha sıx tellərlə bağlanır. İki ölkənin prezidentləri arasındakı şəxsi münasibətlərin yüksək səviyyədə olması, əməkdaşlığın daha da yaxşılaşdırılmasında böyük rol oynayır. Birinci vitse-prezidentin səfərinin yekunları göstərdi ki, Mehriban Əliyevaya da bu ölkədə böyük hörmət bəsləyirlər. Hesab edirəm ki, bu səfər ikitərəfli münasibətlərin bütün parametrlər üzrə yüksək inkişaf tempinə malik olduğunu bir daha təsdiqlədi.**

Mehriban Əliyeva tez-tez xarici səfərlərdə olur. Bu səfərlər çərçivəsində Azərbaycan mədəniyyətinin, incənətinin, mədəni irsinin təbliğində, həmçinin ölkəmizin işğala məruz qalması, xalqımıza qarşı törədilən soyqırımlarının dünyaya bəyan edilməsində, Ermənistanın işğalçı siyasəti nəticəsində bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi barədə geniş məlumatlar verilməsində mühüm rol oynayır. Lakin onun Birinci vitse-prezident kimi ilk rəsmi səfəri öz əhəmiyyətinə görə, birinci növbədə, zənginliyi, keçirilən görüşlərin nəticələri və Rusiya Federasiyasının dövlət mükafatı olan "Dostluq" ordeninin təqdim olunması ilə uzun müddət yaddaşlarda qalacaq. Bu ali mükafatın təqdim edilməsi səfərin ən mühüm hadisələrindən biri oldu. Əslində, bu təltif ikitərəfli münasibətlərimizin səviyyəsinə verilən qiymətdir. Prezident Vladimir Putin də bu mükafatın Birinci vitse-prezidentin iki ölkə arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsindəki fəaliyyətinə verilən yüksək dəyər olduğunu bildirdi: "Əlbəttə, bu dövlət mükafatı, bu "Dostluq" ordeni bir tərəfdən, sanki formal hissə, formal məsələdir, lakin digər tərəfdən, Sizin diqqətinizi ona cəlb etmək istəyirəm ki, bu, düşünülmüş qərardır. Sadəcə, Sizin bizə gəldiyinizə görə yox, Sizin Azərbaycanda ali vəzifəli şəxslərdən biri olduğunuza görə yox. Bu, Sizin işinizlə, Sizin fəaliyyətinizlə, dövlətlərarası əlaqələrin bugünkü yüksək səviyyədə saxlanması ilə bağlıdır. Biz bunu çox yüksək qiymətləndiririk. Ordenin adı Sizin Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafı üçün gördüyünüz işləri əks etdirir. Onun adı belə də səslənir: "Dostluq" ordeni. Sizin işinizə görə və bu dostluğa görə çox sağ olun".

Göründüyü kimi, Birinci vitse-prezident Azərbaycanla Rusiya arasında əməkdaşlığa, böyük xidmətlərinə, hər şeydən əvvəl, humanitar sahədə əlaqələrə böyük töhfəsinə görə bu mükafata layiq görülüb.

Əminliklə deyə bilərəm ki, Mehriban Əliyevanın Rusiyanın Baş naziri Dmitri Medvedev ilə keçirdiyi görüş, Rusiya Prezidenti Vladimir Putinlə və Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko ilə apardığı danışıqlar müsbət töhfələr verəcək, iki ölkə arasında əməkdaşlığı daha da möhkəmləndirəcək. Birinci vitse- prezidentin ölkənin ali rəhbərləri tərəfindən bu səviyyədə qəbul edilməsi, ölkəmizə, onun başçısına, nəhayət, Mehriban xanım Əliyevanın özünə olan hörmətin bariz nümunəsidir. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan-Rusiya münasibətləri mehriban qonşuluqla yanaşı, qarşılıqlı faydalı əməkdaşlığın, ilk növbədə, bərabər hüquqlara söykənən əlaqələrin nəticəsidir. Bu səfər göstərdi ki, iki dövlət arasında siyasi dialoq, ticarət, iqtisadi münasibətlər, humanitar sahədə əlaqələr çox sürətlə inkişaf etməkdədir. Bir fikir də vurğulandı ki, iki dövlətin arasında ticarət dövriyyəsinin səviyyəsi 2,6 milyard dollara çatıb və növbəti illərdə məbləğin 3 milyard dollara çatdırılması əsas hədəflər sırasındadır.

Azərbaycan -- Rusiya münasibətləri bütün sahələr üzrə inkişaf edir. Qeyri-neft sektorunda münasibətlərimiz daha dinamik inkişaf tempinə malikdir. Faktlar da təsdiqləyir ki, 2019-cu ilin 9 ayı ərzində Azərbaycanda 1 milyard 413 milyon dollarlıq qeyri-neft məhsulu ixrac edilib. Bu sırada birinci yerdə Rusiya dayanır ki, bu da 465,6 milyon dollara bərabərdir. Eyni zamanda, Mehriban xanımın bu səfəri çərçivəsində Rusiya Prezidenti Vladimir Putinlə görüşü və bu görüşdə səsləndirilən fikirlər onu göstərir ki, hər iki dövlətin prezidentləri səviyyəsində çox sıx münasibətlər var. Həm Azərbaycan, həm də Rusiya bu münasibətlərin inkişaf etdirilməsində olduqca maraqlıdırlar.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın və Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenkonun iştirakı ilə keçirilən tədbir onu göstərdi ki, regionlararası iqtisadi əlaqələr Azərbaycan-Rusiya münasibətlərinin mühüm tərkib hissəsidir. Rusiyanın 70 regionu ilə Azərbaycanın dostluq və iqtisadi əlaqələri formalaşıb. Qeyri-neft sektorunda, kənd təsərrüfatında, maşınqayırma sahəsində, turizm sahəsindəki əlaqələrimiz çox sürətlə inkişaf edir və olduqca geniş imkan, perspektivi təmin edir. Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şurasının fəaliyyəti də qeyd edilməlidir. Bu da iki ölkə arasındakı münasibətlərə yeni dinamika verir. Bundan başqa, hökumətlərarası komissiyanın iclası Bakıda keçiriləcək. Bütün bunlar bu gün Azərbaycanla Rusiya arasında bütün parametrlər üzrə çox sıx siyasi dialoq mühitinin formalaşmasından xəbər verir.

Rusiya Prezidenti Vladimir Putin və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə sayca 9-cu Regionlararası Forum Bakıda keçirilmişdi. Bu da onu göstərir ki, regionlararası əlaqənin möhkəmləndirilməsi bütövlükdə, ölkələrimiz arasındakı münasibətlərin inkişafına çox mühüm töhfədir və bu istiqamətdə ciddi addımlar atılmaqdadır. Mehriban xanımın səfəri çərçivəsində yadda qalan məqamlardan biri də Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun bərpadan sonra açılmasıdır. Birinci vitse –prezident hadisədən böyük qürur hissi keçirdiyini vurğuladı. Yeri gəlmişkən, qeyd edim ki, bu pavilyonun bərpası Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşdırıldı. Moskvada "Azərbaycan" pavilyonunun fəaliyyəti çox böyük əhəmiyyətə malikdir. İlk növbədə, ona görə ki, Moskva şəhərini ziyarət edən hər bir turistin izləyə biləcəyi çox mühüm pavilyonlardan biridir. Təbii ki, bu, qürurverici hadisədir.

İkitərəfli humanitar əlaqələrimizin sürətlə inkişaf etməsi də müzakirə mövzusu oldu. Qeyd edildi ki, Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi artıq ənənəyə çevrilib. Azərbaycanda rus dilinə çox böyük ehtiram olduğu faktlarla diqqətə çatdırıldı. Mehirban Əliyeva qeyd etdi ki, Azərbaycanda 338 rusdilli məktəb fəaliyyət göstərir. 14 ali təhsil məktəbində rus bölümü fəaliyyət göstərir. 11 min azərbaycanlı tələbə Rusiyada təhsil alır. Eyni zamanda, Rusiyanın Lomonosov adına Moskva Dövlət Universitetinin, Seçenov adına Birinci Moskva Dövlət Universitetinin Bakıda filialları fəaliyyət göstərir. Azərbaycanın ADA Universiteti ilə Rusiyanın Beynəlxalq Əlaqələr İnstitutu arasında imzalanmış sənədə əsasən, artıq ikili magistr diplomlarının verilməsi haqqında razılaşma əldə olunub. Bütün bunlar onu göstərir ki, Azərbaycan -- Rusiya əlaqələri humanitar sahədə də çox yüksək inkişaf tempinə malikdir. Bu tempin əldə edilməsində Mehriban Əliyevanın çox böyük əməyi var. Bu səmərəli fəaliyyət möhtərəm Prezidentimiz İlham Əliyevin bu istiqamətdəki siyasətini tamamlayır və gücünə güc qatır.

Mehriban Əliyevanın Rusiyaya səfəri naməlum əsgərin abidəsini ziyarətdən başlamasının çox böyük simvolik mənası var. Məlum olduğu kimi, naməlum əsgər alman faşizminə qarşı mübarizədə həlak olub, öz canını qurban verib. Azərbaycanın Birinci vitse-prezidenti faşizmə qarşı mübarizədə canını fəda vermiş naməlum əsgəri ziyarət edir, ona öz ehtiramını bildirir. Amma işğalçı Ermənistan dövlətində həmin o naməlum əsgərləri qətlə yetirən, faşizm ideologiyasını təbliğ edən, faşizmə xidmət etmiş şəxslərin qəhrəmanlaşdırılması, onlara abidələrin qoyulması siyasəti həyata keçirilir. Azərbaycan faşizmi lənətləyir, ona qarşı mübarizə prosesinə töhfə verir. Eyni zamanda, faşizmə qarşı mübarizədə canını fəda etmiş insanları ziyarət edir, öz qayğısını, diqqətini ayırır. Amma Ermənistanda onlar qəhrəmanlaşdırılır. Bunlar bir daha onu göstərir ki, Azərbaycan və Ermənistan tamamilə fərqli, bir-birinin əksi olan dövlətlərdir. Birində faşizm ideologiyası, digərində isə sülh və əmin-amanlıq, birgəyaşayış mədəniyyəti, multikultural dəyərlər təbliğ olunur.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident statusunda Rusiyaya ilk rəsmi səfəri iki ölkə arasındakı əlaqələrə öz töhfəsini verdi. Dövlətimizin başçısı cənab İlham Əliyev də noyabrın 27-də Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisini qəbul edərkən bu səfərin əhəmiyyətindən söhbət açdı. Qeyd etdi ki, Mehriban Əliyevanın Moskvaya rəsmi səfəri Rusiya --Azərbaycan münasibətlərinin yüksək səviyyədə olmasını bir daha təsdiqlədi: "Biz bu səfəri çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, beynəlxalq siyasətdə görünməmiş hadisədir, dövlətdə birinci şəxs olmayan adam Prezident tərəfindən, özü də dünyanın aparıcı ölkəsinin Prezidenti və dünya siyasətçiləri arasında bir nömrəli Prezident tərəfindən ən yüksək səviyyədə qəbul edilir. Zənnimcə, bu, təkcə mənim fikrim deyil, rəhbərlərin böyük əksəriyyətinin fikridir".

***Elman NƏSİROV,***
***Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru***